Müəssisələr üçün SƏTƏMM sahəsində rəqəmsal texnologiyaların tətbiqi, həm işçi sağlamlığını qorumaq, həm də ətraf mühitin mühafizəsini təmin etmək baxımından əhəmiyyətli irəliləyişlərə yol açır. İnnovativ bir veb səhifə yaradılması, müəssisələrə bu məqsədlərə çatmaq üçün effektiv vasitələr təqdim edir. Veb səhifənin komponentləri, müasir texnologiyaların, o cümlədən IoT cihazları, süni intellekt, bulud texnologiyaları, blokçeyn və virtual reallıq kimi alətlərin inteqrasiyasını təmin etməklə, SƏTƏMM fəaliyyətlərinin daha şəffaf, operativ və ətraf mühitə dost olmasına kömək edir. Bu veb səhifə, müəssisələrin əməliyyatlarını optimallaşdırmaq, riskləri əvvəlcədən proqnozlaşdırmaq, təhlükəsizlik tədbirlərini təkmilləşdirmək və ətraf mühitə təsiri azaltmaq üçün əhəmiyyətli bir platforma təmin edir. Nəticədə, müəssisələr daha təhlükəsiz, ekoloji cəhətdən davamlı və qanuni tələblərə uyğun fəaliyyət göstərə bilər, bu da həm işçi sağlamlığını artırır, həm də təşkilatların sosial məsuliyyətini gücləndirir. E-SƏTƏMM veb səhifəsinin müəssisə infrastrukturlarının veb saytına inteqrasiyası infrasturkturun davamlı dayanıqlı inkişafına təklif olunan yeni innovativ həldir.

Ədəbiyyat:

1. Əliyeva S.İ., Süleymanova A.H. Bulud texnologiyalarinin idarəetmə sektorlarinda tətbiqinin üstünlükləri və problemləri. MAS 19th INTERNATIONAL EUROPEAN CONFERENCE ON MATHEMATICS, ENGINEERING, NATURAL & MEDICAL SCIENCES. URL: https://mdu.edu.az/wp-content/uploads/2024/05/19.pdf

2. Əliyeva S.İ., Süleymanova A.H. Advantages And Challenges Of Using Cloud Technologies In Management Areas. II International Scientific Conference on Problems of Higher Education and Science "Scientific and Methodological Aspects of Improving the Quality of Specialist Training in Global Challenges". May 10, 2024.

3. Fərəcova G., Vahabova L. İş Şəraitində Əmək, Təhlükəsizlik və Sağlamlıq Qaydaları. Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 11 oktyabr 2019-cu il tarixli, F-604 saylı əmr ilə təsdiq edilmişdir. Bakı, 2019. 83 s.

4. Azərbaycan Respublikası Əmək Məcəlləsi.

5. Occupational health and safety management systems URL: https://www.iso.org/standard/63787.html

6. Hseglobal. URL: https://hseglobal.com/hse-management-system/

7. Safetyculture. URL: https://safetyculture.com/topics/hse-management-system/

## AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Namazova Aynur Məhəmməd qızı, müəllim*
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant*

Ölkəmizdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra layihələr həyata keçirilib. Azərbaycan iqtisadiyyatına xarici

investiya qoyuluşu diqqət mərkəzində saxlanılmaqla bərabər, dövlət müəssisələrinə qoyulan investisiyaların səmərəli istifadəsinə də nəzarət gücləndirilib. Belə ki, dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək məqsədilə Azərbaycan Respublikası Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Azərbaycan İnvestisiya Holdinqi yaradılıb. Bu, dövlət müəssisələrinin profisitinin artırılmasına, onların büdcədən asılılıqlarının azaldılmasına, azad bazar münasibətlərinin hərtərəfli inkişafına, özəl mülkiyyətin genişlənməsinə mühüm təsir göstərib.

Azərbaycana investisiya yatırılmasına marağın getdikcə artması, ölkəmizin siyasi baxımdan sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə əlaqədardır. Eyni zamanda, ölkəmizdə keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində güclü iqtisadi potensial mövcuddur. Əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, Azərbaycanın əlverişli mövqeyə malik tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri tam şəkildə həyata keçirir. Həyata keçirilən transmilli layihələr bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

İl ərzində müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində ölkəmizdə sənayeləşmə sürətlə inkişaf edib, inşaat materiallarının istehsalı, metallurgiya, maşınqayırma, kimya, qida və digər ənənəvi sənaye sahələri genişlənib, yeni sənaye sahələri yaradılıb, respublikamızda sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi artıb.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə fevralın 2-də təsdiq olunmuş “Azərbaycan 2030: Milli Prioritetlər” sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi, reinteqrasiyası və inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri elan edilib [1].

Azad olunan ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, burada əhalinin məşğulluğunun təmin edilməsi, istehsal, xidmət, ticarət, nəqliyyat, logistika və digər sahələrin yaradılması da diqqət mərkəzindədir. Qarabağda dağ-mədən, yeyinti, emal sənayeləri, metallurgiya, turizm-rekreasiya, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq, tikini materialları kimi sahələr böyük inkişaf potensialına malikdir.

Azərbaycanda iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar biznesin inkişafına güclü təkan verib. Liberal biznes mühitinin formalaşmasının xüsusi diqqət mərkəzində saxlanılması isə investisiya şəraitinin yaxşılaşdırılmasına müsbət təsir göstərib. Görülən işlər iqtisadiyyatın genişlənməsinə və investisiyaların artımına yol açıb.

“Əlverişli Biznes Mühiti” layihəsi Dünya Bankı Qrupu tərəfindən təqdim edilib. Layihənin “Vergitutma” indikatoru üzrə Yol Xəritəsi təqdim edilib və bu istiqamətdə nəzərdə tutulan tədbirlər müəyyənləşdirilib. “Əlverişli Biznes Mühiti” layihəsi ölkənin biznes və investisiya mühitinin əlverişliliyinin, yerli və xarici investorlar üçün

cəlbediciliyinin daha da artırılmasına yönələn, keyfiyyətcə yeni yanaşmalar əsasında qurulan bir dəyərləndirmə prosesidir. Əgər əvvəllər qurum tərəfindən biznes mühitinin dəyərləndirilməsi zamanı diqqət daha çox mikro və kiçik sahibkarlıq subyektlərinə yönəlirdisə, indi ölkədə biznes sahələrinin funksionallığı, bütövlükdə özəl sektorun inkişafına təsir göstərən biznes qaydaları və dövlət xidmətlərinin müqayisəli qiymətləndirilməsi xüsusi önəm daşıyır. "Əlverişli Biznes Mühiti" layihəsi ölkənin biznes və investisiya mühitinin əlverişliliyinin, yerli və xarici investorlar üçün cəlbediciliyinin daha da artırılmasına yönələn, keyfiyyətcə yeni yanaşmalar əsasında qurulan bir dəyərləndirmə prosesidir [2].

Ədəbiyyat:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. URL: https://president.az/az/articles/view/50474
2. Azərbaycan İnvestisiya Holdinqi. URL: https://aih.gov.az/

## XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASI İSTİQAMƏTİNDƏ APARILAN VALİDEYNLƏRLƏ ƏMƏKDAŞLIQ İŞLƏRİ

*Nəcəfova Günel Alim qızı*
*Mingəçevir Dövlət Universiteti*

Uşaqların sağlamlıq imkanları məhdudluğu günbəgün artmaqdadır. Bu artımın əsas səbəbləri arasında ekoloji şəraitin pozulması, gələcək valideynlərin və xüsusilə də anaların sağlamlıq problemləri, həll olunmamış sosial-iqtisadi problemlər sayıla bilir. Hazırda, dünya cəmiyyətində uşaqların sosiallaşmasına özəl diqqət ayrılır və ehtiyac vardır. Vurğulanmalıdır ki, bu məsələ ölkəmizdə hal-hazırda da aktualdır və çox böyük bir problemdir. Məhdudiyyətli şəxslərin valideynləri üçün uşaqlara qulluq məsuliyyətlidir. Uşaqlarının öyrənmə və sosiallaşma prosesində öhdəlikləri daha da artır. Çoxsaylı araşdırmalar göstərir ki ki, bu qəbildən olanların valideynləri emosional gərginlik, həyəcan, günah hissi və s. mənfi emosialar keçirirlər və xroniki stress vəziyyətində olurlar. Bütün bunlar valideynlərin uşaqlarına olan münasibətlərinə təsir edir və uşaqların sağlamlıq və inkişafı üzərində olumsuz təsir göstərir. Bu kateqoriyadakı ailələr üçün dəstək proqramları və sosial yardım təşkilatları vacibdir.. Ailələrə edilən dəstək vasitəsilə valideynlər uşaqlarının problemləri ilə daha yaxşı başa çıxır və özlərini daha az stressli hiss edirlər.

Məhdudiyyətli uşağın ailədə doğulması valideynlər üçün fərqli bir hadisədir. Bu zaman onlar üçün 3 reaksiya növü mövcuddur:

- Passiv reaksiyalı ailələr - problemin ağırlığını başa düşmədə, qarşıya alınan tədbirlər haqqında qərar verilmədə təxirə salınma ilə əlaqəli olanlar;
- Hiperaktiv reaksiyalı ailələr - uşağı müalicəsi üçün çox işgörənlər, yüksək dəyərləndirilən dərmanlara üstünlük verənlər, çoxsaylı klinikalara gedən və s
- Ortaq razılaşmış və razılaşmamış ailələr - təlimatları ardıcıl icra edənlər və ya problemin ağırlığı ilə mübarizədə hələ də qərar verməkdə çətinlik çəkənlər.